**UOT 327**

# ABŞ-IN AVROPA ÖLKƏLƏRİ İLƏ MÜNASİBƏTDƏ ÜSTÜN SİYASİ GÜC OLARAQ ROLU

**Hafiz KƏRİMLİ***

Məqalə redaksiyaya daxil olmuşdur: 23 yanvar 2025; çapa qəbul edilmişdir: 12 iyun 2025; online-da çap edilmişdir: 25 iyun 2025.

Received: 23th of January, 2025; accepted: 12th of June, 2025; published online: 25th of June, 2025.

**Açar sözlər:** *ABŞ,* ABŞ-Avropa əlaqələri, *Qərbi Avropa, Şimali Avropa, Cənub-Şərqi Avropa*

## Giriş

Birləşmiş Ştatlar tarixən Avropanın siyasi və iqtisadi həyatında mühüm rol oynayıb. Bu təsir, xüsusən İkinci Dünya müharibəsindən sonra daha da güclənib. ABŞ-ın Avropa ölkələri ilə münasibətlərindəki üstün siyasi gücü hərbi, iqtisadi, diplomatik və mədəni sahələrdəki liderliyindən qaynaqlanır.

ABŞ-ın hərbi texnologiyaları və kəşfiyyat imkanları Avropa ölkələrində qarşılıqlı təhlükəsizliyi təmin etməyə yardım edir. ABŞ-ın beynəlxalq platformalarda göstərdiyi diplomatik güc Avropa ölkələrinin mövqelərini formalaşdırmağa və müzakirə olunan məsələlərdə böyük təsir göstərməyə imkan verir. ABŞ BMT, G7, G20 kimi beynəlxalq təşkilatlarda xüsusi rola malikdir və bu təşkilatlar vasitəsilə qlobal məsələlərdə Avropa ölkələri ilə birgə siyasi və iqtisadi qərarlar qəbul edir.

## 1. ABŞ-ın Qərbi Avropa ilə əlaqələrində siyasi rolu

ABŞ-ın Qərbi Avropa ölkələri ilə münasibətlərdə üstün siyasi güc kimi rolu tarixi proseslər, iqtisadi əlaqələr, hərbi əməkdaşlıq və beynəlxalq siyasətdəki təsiri ilə formalaşıb. İkinci Dünya Müharibəsindən sonra ABŞ Avropanın bərpa edilməsində əsas rol oynayırdı. Belə ki, ABŞ "Marşal planı" vasitəsilə Qərbi Avropa ölkələrinə iqtisadi dəstək göstərərək onların iqtisadiyyatlarını yenidən qurmağa kömək edirdi.

Soyuq Müharibə illərində isə ABŞ Qərbi Avropanı Sovet İttifaqına qarşı siyasi və hərbi müttəfiq kimi dəstəkləyirdi. 1949-cu ildə NATO-nun yaradılması isə bu əməkdaşlığın əsas dayaq nöqtəsinə çevrildi. Ümumiyyətlə, ABŞ NATO-nun ən güclü üzvü hesab edilir və bu təşkilatın fəaliyyətinə rəhbərlik edir. Müasir dövrdə NATO-nun əsas missiyaları, o cümlədən terrorizmə qarşı mübarizə və Avropada təhlükəsizlik təminatı kimi məsələlər məhz ABŞ-ın dəstəyi ilə həyata keçirilir.

ABŞ Avropa ilə birlikdə qlobal siyasətdə sanksiyalar tətbiq edilməsində və iqtisadi tənzimləmələrdə liderlik edir. İran və Rusiya kimi ölkələrə qarşı tətbiq edilən sanksiyalarda Qərbi Avropa ilə yaxın əməkdaşlıq münasibətləri diqqətə layiqdir. Bununla yanaşı, ABŞ-ın Qərbi Avropa ilə bu münasibətləri həm də Şərq təhlükələrinə qarşı yönəlmişdir (4, s. 98).

*Almaniya ilə münasibətlər:*

---

* *magistrant, Bakı Avrasiya Universiteti*
*e-mail:* hafizkerimov36@gmail.com
**https://doi.org/10.30546/25194011.2025.14.2.232**

ABŞ Qərbin aparıcı ölkələrindən biri sayılan Almaniya ilə yaxın və eyni zamanda güclü müttəfiqlərdir. Keçmişə nəzər salsaq, Birinci Dünya Müharibəsində (1917-1918) və İkinci Dünya Müharibəsində (1941-1945) bu iki xalq bir-biri ilə vuruşmuşdur. 1945-ci ildən sonra ABŞ, Böyük Britaniya və Fransa ilə birlikdə Qərbi Almaniyanı işğal etdi və demilitarizasiya olunmuş demokratik cəmiyyət qurdu. Qərbi Almaniya 1949-cu ildə müstəqillik əldə etdi. 1989-cu il inqilabları və Berlin divarının yıxılması ilə Şərqi Avropada kommunist idarəçiliyi sona çatdıqdan sonra Almaniya yenidən birləşdirildi və müttəfiq dövlətlər Almaniyaya münasibətdə yekun həll haqqında müqavilə ilə Almaniyaya tam suverenliyi bərpa etdilər. Yenidən birləşən Almaniya Federativ Respublikası Avropa İttifaqının, NATO-nun tamhüquqlu üzvü və ABŞ-ın ən yaxın müttəfiqlərindən birinə çevrildi.

ABŞ və Almaniya NATO-nun üzv ölkələri olduğu üçün beynəlxalq təhlükəsizlik məsələlərində, o cümlədən terrorizmə qarşı mübarizədə və kiber təhlükəsizlikdə də sıx əməkdaşlıq edirlər. Almaniya ABŞ-ın Avropadakı ən böyük hərbi baza mərkəzlərindən birinə, xüsusilə Ramstein Hava Bazasına ev sahibliyi edir.

Bu gün hər iki ölkə arasında siyasi əlaqələr kimi, iqtisadi əlaqələr də mühüm əhəmiyyət kəsb edir. Almaniya ABŞ-ın Avropadakı ən mühüm ticarət tərəfdaşıdır. ABŞ-ın ikitərəfli ticarətinin (idxal və ixracının) ümumi həcminə görə Almaniya Kanada, Çin və Meksikadan sonra dördüncü yerdə qalır. ABŞ Almaniyanın ticarət tərəfdaşları arasında Hollandiya, Çin və Fransadan sonra dördüncü yerdədir. 2023-cü ildə ikitərəfli ticarət 236 milyard dollar təşkil etmişdir.

*Fransa ilə münasibətlər:*

ABŞ-ın Fransa ilə münasibətdə üstün siyasi rolu tarixi, siyasi, iqtisadi və mədəni məsələlərdə özünü təzahür edir. ABŞ və Fransa arasında ikitərəfli münasibətlər müxtəlif sahələrdə həm əməkdaşlıq, həm də rəqabət xarakteri daşıyır. Fransa NATO daxilində müstəqil qərar qəbul etməyə çalışsa da, ABŞ-ın Avropa təhlükəsizliyində oynadığı rolu qəbul edir. Bu, xüsusilə Rusiya və digər potensial təhlükələrə qarşı birgə fəaliyyətlərdə özünü göstərir.

ABŞ Fransa ilə siyasi və iqtisadi əlaqələrini strateji maraqlar əsasında yönləndirir. Fransa Avropa Birliyinin əsas liderlərindən biri kimi ABŞ-ın Avropa siyasətində mühüm tərəfdaş hesab olunur (6, s. 32-34).

ABŞ-ın qlobal iqtisadiyyatda lider rolu onun Fransa ilə münasibətlərində üstünlük təşkil etməsinə səbəb olur. ABŞ, həm Fransa, həm də Avropa Birliyi ilə geniş ticarət əlaqələrinə malikdir. Fransa ABŞ-ın Avropadakı əsas investisiya tərəfdaşlarından biridir. Dolların qlobal rezerv valyutası kimi üstün mövqeyi də ABŞ-ın iqtisadi gücünü artırır və Fransa kimi ölkələrlə əlaqələrində iqtisadi üstünlük təmin edir.

*İtaliya ilə münasibətlər:*

ABŞ-ın İtaliya ilə münasibətdə də üstünlüyə sahib olması Fransa ilə olduğu kimi, müxtəlif tarixi, strateji, iqtisadi və siyasi amillərlə müəyyən edilir. ABŞ İtaliya ilə olan əlaqələrində həm siyasi, həm də iqtisadi təsirini geniş şəkildə nümayiş etdirir. Bu münasibətlər əsasən ABŞ-ın Avropada oynadığı lider rolu və İtaliyanın Avropa İttifaqı və NATO daxilindəki mövqeyi üzərində qurulub.

Lakin İtaliya Fransa ilə müqayisədə daha az müstəqil xarici siyasət yürüdür və ABŞ-ın qlobal təsirini geniş şəkildə qəbul edir. Bununla belə, bəzi məsələlərdə, xüsusən də Avropa İttifaqı daxilində, İtaliya ABŞ-ın təzyiqinə qarşı öz maraqlarını da müdafiə etməyə çalışır.

Ümumilikdə, İtaliya ABŞ-ın NATO-dakı əsas müttəfiqlərindən biri hesab olunur və strateji cəhətdən bir sıra mühüm hərbi bazalara malikdir. Bu hərbi bazalar, xüsusən ABŞ-ın Avropa və Şimali Afrika regionlarına təsirini təmin edir. Siciliyada yerləşən Siqonella Hərbi Hava Bazası və Napoli yaxınlığındakı NATO-nun Dəniz Qüvvələri Ko-

mandanlığı ABŞ-ın Avropada və Aralıq dənizi bölgəsində hərbi əməliyyatlarına dəstək verir.

İtaliya, Aralıq dənizi bölgəsindəki strateji mövqeyi sayəsində ABŞ-ın Yaxın Şərq və Şimali Afrika siyasətlərində mühüm tərəfdaşdır. ABŞ İtaliya ilə birgə Yaxın Şərqdə və digər geosiyasi böhran zonalarında fəaliyyət göstərir, beləliklə İtaliya üçün təhlükəsizlik məsələlərində böyük bir dəstək təmin edir (1, s. 57-58).

Ümumiyyətlə, ABŞ İtaliya ilə münasibətlərdə hərbi, iqtisadi və diplomatik üstünlüklərindən istifadə edərək dominant tərəf kimi çıxış edir. Lakin İtaliya, Avropa İttifaqının üzvü və müstəqil xarici siyasət yürütməyə çalışan ölkə olaraq, bu təsirə qarşı öz milli maraqlarını qorumağa çalışır. ABŞ-ın qlobal gücü və İtaliyanın strateji mövqeyi bu iki ölkə arasında əməkdaşlığın davamlı olmasını təmin edir.

## 2. Şimali Avropa-ABŞ münasibətlərində siyasi güc balansı və liderlik perspektivləri

Şimali Avropa ölkələri olan Norveç, İsveç, Finlandiya, Danimarka, İslandiya, Litva, Latviya, Estoniya kimi ölkələr coğrafi mövqeləri, siyasi sabitlikləri və qlobal məsələlərdəki fəal rolları səbəbindən ABŞ-ın Şimali Avropa siyasətində xüsusi yer tutur. ABŞ-ın Şimali Avropa ölkələri ilə hərbi və siyasi sahədə münasibətləri həm NATO çərçivəsində, həm də ikitərəfli sazişlər əsasında dərinləşmiş strateji əlaqələrə əsaslanır. Şimali Avropa ölkələrinin təhlükəsizliyi və müdafiəsi regionun strateji əhəmiyyəti və ABŞ-ın Avropa siyasətindəki rolu baxımından xüsusi önəm daşıyır.

Norveç və İslandiya kimi Şimali Avropa ölkələri, ABŞ-ın Arktika regionunda strateji maraqları üçün mühüm əhəmiyyət kəsb edir. Bu regionda Rusiya və Çin kimi güclərin artan təsirinə qarşı ABŞ Şimali Avropa ölkələri ilə əməkdaşlıq edir.

Şimali Avropa ölkələri, xüsusilə Finlandiya və İsveç, Rusiya ilə sərhəd bölgələrində yerləşdiyi üçün ABŞ-ın NATO vasitəsilə bu ölkələrin təhlükəsizliyinə dəstək verməsi mühüm əhəmiyyət kəsb edir. Bu ölkələrin NATO-ya üzv olması ABŞ-ın bölgədəki təsirini daha da gücləndirmişdir. Norveç, Danimarka və İslandiya da öz növbəsində ABŞ-ın Şimali Avropadakı hərbi gücünün əsas tərəfdaşları olduğu üçün NATO-nun hərbi əməliyyatlarında iştirak etmələri ABŞ-ın Avropa təhlükəsizliyindəki rolunu gücləndirir. İslandiya ABŞ-ın Atlantik regionundakı hərbi patrulları üçün mühüm strateji mərkəz, Norveç isə Arktika regionunda ABŞ-ın hərbi gücünü dəstəkləyən əsas müttəfiq hesab edilir (7, s.4).

ABŞ-ın Şimali Avropa ölkələri ilə hərbi əməkdaşlığı daha da gücləndirən amillərdən biri də onun döyüş təyyarələri, radar sistemləri və digər müdafiə texnologiyalarını bu ölkələrə ixrac etməsidir. Məsələn, Norveç F-35 döyüş təyyarələrini, Danimarka Patriot hava hücumundan müdafiə sistemlərini, Baltikyanı ölkələr, yəni Estoniya, Latviya və Litva isə Javelin tank əleyhinə sistemlərini məhz ABŞ-dan alır. Eyni zamanda Baltikyanı ölkələrin təhlükəsizliyini təmin etmək üçün NATO-nun "Enhanced Forward Presence" təşəbbüsü çərçivəsində ABŞ hərbçiləri bu bölgədə yerləşdirilib. İslandiya isə ABŞ-ın Şimali Atlantikada strateji mövqeyə malik olan Keflavik Hərbi Bazasından istifadə edir.

Bununla yanaşı, NATO çərçivəsində ABŞ və Şimali Avropa ölkələri birgə hərbi təlimlər keçirir. Xüsusilə, "Arctic Challenge Exercise" kimi təlimlər ABŞ-ın regional təhlükəsizlik siyasətində mühüm yer tutur. Bundan başqa, "Baltops", "Cold Response" və "Trident Juncture" adlı təlimlər də regionda müdafiə hazırlığını gücləndirir. Hər bir təlimin də özünəməxsus xüsusiyyəti vardır. Məsələn, "Baltops" təlimi Baltik dənizində keçirilir və NATO ölkələrinin birgə hərbi-dəniz təlimi hesab olunur. "Cold Response" isə Norveçdə keçirilir və adından da göründüyü kimi bu təlimdə soyuq hava şəraitinə

hərbi hazırlıq görülür. "Trident Juncture" adlı hərbi təlim isə NATO-ya məxsusdur və digərlərinə nisbətən daha böyük miqyaslıdır (5, s. 59-61).

Ümumiyyətlə, Şimali Avropa ABŞ-ın Avropa və Arktika regionunda strateji mövqeyini gücləndirən bir region hesab olunur. ABŞ Şimali Avropa ölkələri birlikdə çalışaraq Rusiyanın hərbi təhdidlərinə qarşı regionda sabitliyi təmin etməyi əsas hədəfinə çevirmişdir. Rusiya tərəfindən gələ biləcək təhlükə ilə əlaqədar olaraq ABŞ, Şimali Avropada hava hücumundan müdafiə sistemlərinin, radarların və döyüş təyyarələrinin yerləşdirilməsini artırır. ABŞ-ın Rusiya ilə artan gərginliyi onun Şimali Avropa ilə davamlı əməkdaşlığını tələb edir.

### 3. Cənub-Şərqi Avropada ABŞ-ın siyasi nüfuzu və strateji maraqları

Cənub-Şərqi Avropa uzun illərdir ki, beynəlxalq güclərin geosiyasi maraq toqquşmalarının mərkəzində dayanır. Balkan yarımadası, həm Avropa İttifaqı ilə Şərqi Avropa arasında yerləşməsi, həm də etnik və dini müxtəlifliyi ilə spesifik strateji mövqeyə malikdir. ABŞ bu regionda müxtəlif tarixi mərhələlərdə iştirak etmiş və 1990-cı illərdən etibarən dominant xarici güc olaraq öz nüfuzunu sistematik şəkildə möhkəmləndirmişdir. Bu nüfuzun əsas məqsədləri Rusiya və Çin kimi rəqib aktorların təsirini məhdudlaşdırmaq, enerji təhlükəsizliyini təmin etmək və Qərbyönlü siyasi institutları gücləndirməkdir.

1990-cı illərin əvvəllərində Yuqoslaviya dağıldıqdan sonra regionda etnik münaqişələr və silahlı qarşıdurmalar baş verdi. ABŞ bu münaqişələrə birbaşa və dolayı yollarla müdaxilə etdi. 1995-ci ildə imzalanan Dayton Sülh Müqaviləsi ABŞ diplomatiyasının uğuru kimi dəyərləndirilir. Müqavilə Bosniya və Herseqovinada müharibəyə son qoydu və beynəlxalq sülh qüvvələrinin yerləşdirilməsinə yol açdı.

1999-cu ildə Kosova müharibəsi zamanı NATO-nun Serbiyaya qarşı apardığı hərbi əməliyyatlar ABŞ liderliyində həyata keçirildi. Bu hadisə ABŞ-ın Cənub-Şərqi Avropada təkcə diplomatik deyil, həm də hərbi vasitələrlə təsir imkanlarını genişləndirdiyini göstərdi. Əməliyyatlardan sonra Kosova ərazisində Bondstil Hərbi Bazası yaradıldı və bu baza ABŞ-ın Balkanlardakı hərbi iştirakının simvoluna çevrildi.

ABŞ-ın bu regionda fəaliyyəti yalnız münaqişə dövrləri ilə məhdudlaşmır. ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAID) vasitəsilə 2000-ci illərdən başlayaraq Albaniya, Bosniya, Şimali Makedoniya və Serbiya kimi ölkələrdə demokratik institutların gücləndirilməsi, azad media, qadın hüquqları və seçki sistemləri ilə bağlı onlarla proqram həyata keçirmişdir (2, s. 85).

Cənub-Şərqi Avropa ABŞ üçün bir neçə əsas strateji maraq nöqtəsi baxımından əhəmiyyətlidir:

1. ***Enerji təhlükəsizliyi və enerji diplomatiyası:*** Cənub-Şərqi Avropa Avropa İttifaqının enerji strategiyasında mühüm rola malikdir. ABŞ bu regionu Cənub Qaz Dəhlizi çərçivəsində mühüm enerji tranzit bölgəsi kimi görür. ABŞ-ın dəstəklədiyi Trans-Adriatik Boru Kəməri (TAP) Azərbaycan qazını Yunanıstan və Albaniya vasitəsilə İtaliyaya çatdırır. Bu layihə ABŞ-ın Avropanın Rusiya qazından asılılığını azaltmaq siyasətinə uyğundur.

2. ***Geosiyasi rəqabət:*** Rusiya və Çinlə qarşıdurma: ABŞ üçün Cənub-Şərqi Avropa həm də böyük güclər arasında rəqabət məkanıdır. Rusiya xüsusilə Serbiya və Bosniya Serb Respublikası üzərində təsir imkanlarını qorumağa çalışır. Rusiya pravoslav ortodoks həmrəyliyi, tarixi və dil yaxınlığı, enerji müqavilələri və media vasitələri ilə regionda təsirini davam etdirir. Digər tərəfdən, Çin Xalq Respublikası "17+1" formatı və "Bir Kəmər, Bir Yol" təşəbbüsü çərçivəsində regionda limanlar (Pirey limanı, Yunanıstan), yollar və dəmir yolları inşa edərək iqtisadi təsirini artırır. ABŞ bu iki gücün regiondakı genişlənməsinə qarşı həm iqtisadi alternativlər, həm də hərbi-siyasi

əməkdaşlıq formatları təklif edir. Serbiya ilə NATO arasında "Sülh naminə Tərəfdaşlıq" çərçivəsində əməkdaşlıq, Monteneqro və Şimali Makedoniyanın NATO üzvlüyü bu istiqamətdə addımlardır.

ABŞ Cənub-Şərqi Avropanın NATO və Avropa İttifaqına inteqrasiyasını fəal şəkildə dəstəkləyir. 2017-ci ildə Monteneqro, 2020-ci ildə isə Şimali Makedoniya NATO üzvü oldu. ABŞ bu ölkələrə təhlükəsizlik zəmanətləri verərək regionda sabitlik yaratmağa çalışır (6, s.48).

Vaşinqton eyni zamanda Kosova ilə Serbiya arasında dialoqu da dəstəkləyir. 2020-ci ildə imzalanan Vaşinqton İqtisadi Razılaşması vasitəsilə ABŞ, tərəflər arasında iqtisadi əməkdaşlığı təşviq etməyə çalışdı.

ABŞ-ın Balkanlardakı təsir alətlərindən biri də yumşaq güc vasitələridir. ABŞ səfirlikləri və dövlət departamentinə bağlı mərkəzlər vasitəsilə jurnalistika, vətəndaş cəmiyyəti, təhsil və gənclərlə iş sahələrində müxtəlif proqramlar həyata keçirilir. Fulbright, Open World, IVLP kimi təqaüd və mübadilə proqramları yerli liderlərin ABŞ-la tanış olmasına və ABŞ modeli ilə inteqrasiyasına imkan yaradır.

Eyni zamanda ABŞ regionda müstəqil medianın və hüquq müdafiəçilərinin fəaliyyətini dəstəkləyir. "Balkan Investigative Reporting Network" (BIRN) kimi təşkilatlara maliyyə və texniki yardım göstərilir.

ABŞ həmçinin ABŞ-ABŞ Balkanlar Strategiyası çərçivəsində regionda korrupsiyaya qarşı mübarizə və hüquqi islahatları dəstəkləməkdədir. Bu, ABŞ-ın demokratiya və hüquqi dövlət dəyərləri üzərindən təsirini möhkəmləndirməsinə xidmət edir (3, s.1031).

Cənub-Şərqi Avropa ABŞ üçün yalnız regional deyil, həm də qlobal strateji məna kəsb edir. Bu regionda ABŞ-ın məqsədi təkcə sabitlik yaratmaq deyil, həm də Qərb dəyərlərini yaymaq, enerji təhlükəsizliyini təmin etmək və rəqib güclərin təsir dairəsini məhdudlaşdırmaqdır. ABŞ-ın regionda uğurlu siyasəti yerli hökumətlərin Avroatlantik inteqrasiya iradəsinə, ABŞ-ın öz daxili siyasi sabitliyinə və qlobal geosiyasi balanslara bağlı olaraq inkişaf edəcəkdir.

**Nəticə**

ABŞ Avropa ölkələri ilə birgə fəaliyyət göstərərək terrorizmin qarşısını almağa və regional böhranları idarə etməyə çalışır. ABŞ-ın beynəlxalq platformalarda göstərdiyi diplomatik güc Avropa ölkələrinin mövqelərini formalaşdırmağa və müzakirə olunan məsələlərdə böyük təsir göstərməyə imkan verir.

ABŞ-ın Avropa ölkələri ilə münasibətinin əsas məqsədi bu regionda Rusiya, İran və Çinin təsirini məhdudlaşdırmağa yönəlmişdir. ABŞ Avropa ölkələri birlikdə çalışaraq rəqabət apardığı ölkələrin, xüsusilə Rusiyanın hərbi təhdidlərinə qarşı regionda sabitliyi təmin etməyi əsas hədəfinə çevirmişdir. Buna görə də ABŞ Avropa ölkələri ilə müxtəlif təlimlər keçirir, onların döyüş hazırlığını artırmağa kömək edir. ABŞ-ın Rusiya ilə artan gərginliyi onun Avropa ölkələri ilə davamlı əməkdaşlığını tələb edir. ABŞ bu rəqabət mühitində Avropada öz tərəfdaşlarını gücləndirməklə siyasi üstünlüyünü qorumağa çalışır.

Beləliklə, Avropa ölkələri ABŞ-ın təsirindən faydalanaraq, həm regional, həm də qlobal məsələlərdə mühüm tərəfdaşlar olaraq çıxış etməkdə davam edirlər. ABŞ-ın Avropa ölkələrindəki siyasi rolu gələcəkdə də beynəlxalq və regional məsələlərdə əhəmiyyətli olaraq qalacaq.

## ƏDƏBİYYAT

1. Dinç C., Esentürk N. Avrupa ve Amerika Birleşik Devletleri arasındaki ilişkide dönüşümler (2001-2017). Yüksek Lisans Tezi. Eskişehir Osmangazi Üniversitesi Sosyal Bilimler Enstitüsü, Eskişehir, 2018, s. 41-76.
2. Sönmez S. Soğuk Savaş sonrası dönemde ABD ve AB dış politikalarında ortaya çıkan temel farklılıklar (1991-2001) // Sosyal Bilimler Enstitüsü Dergisi, 2012, Cild 15, Sayı 2, s. 81-114.
4. Hoffmann S. US-European relations: past and future. London: International Affairs 79. 2003, p. 1029-1036
5. Martin A. American-European Relations in U.S. World History Textbooks, 1921-2001 // Aarhus: Aarhus University, 2012, p. 96-112.
6. Кислицын С. Политика США в условиях растущих невоенных вызовов в Европе // Современная Европа, 2021, №6, с. 52-62.
7. Королев В.Р. Внешняя политика США в Европе в конце XX-начале XXI века. Выпускная квалификационная работа. Екатеринбург: Уральский государственный педагогический университет, 2016, 87 с.
8. Краснов Ю.К. Новый вектор политики США в Европе: за чей счет будет складываться баланс интересов. Москва: МГИМО, 2017, 7 с.

***Резюме***

***Хафиз Керимли***

***Роль США как доминирующей политической силы в отношениях с европейскими странами***

Исторически Соединенные Штаты играли важную роль в политической и экономической жизни Европы, и эта роль особенно усилилась после Второй мировой войны. Потому что после Второй мировой войны Соединенные Штаты сыграли ключевую роль в восстановлении Европы. Превосходная политическая мощь Соединенных Штатов в отношениях с европейскими странами проистекает из их лидерства в военной, экономической, дипломатической и культурной областях. В военной сфере США обладают военной мощью в Европе, имея многочисленные базы в рамках НАТО. Кроме того, военные технологии и возможности разведки США помогают европейским странам обеспечивать взаимную безопасность.

Разведывательная, военная и дипломатическая мощь Соединенных Штатов также играет важную роль в европейской политике безопасности. Европейские страны сотрудничают с Соединенными Штатами в целях предотвращения терроризма и управления региональными кризисами. Дипломатическая мощь, которую США демонстрируют на международных площадках, позволяет им формировать позиции европейских стран и оказывать большое влияние на обсуждаемые вопросы.Одним из факторов, еще больше укрепляющих военное сотрудничество США со странами Северной Европы, является экспорт в эти страны истребителей, радиолокационных систем и других оборонных технологий. Тем временем США и страны Северной Европы проводят совместные военные учения в рамках НАТО.

Основная цель деятельности США в этом регионе — ограничить влияние России и Китая. Россия пытается расширить свое влияние в регионе в энергетической и военной сферах, в то время как Китай пытается оказать экономическое влияние через инициативу «Один пояс, один путь». США пытаются сохранить свое преимущество в этой конкурентной среде за счет укрепления своих партнеров. США рассматривают европейские страны как надежного гаранта безопасности, особенно в условиях влияния России и Ирана в регионе.

Таким образом, отношения США с Европой основаны на стратегических интересах, укреплении НАТО, защите демократических принципов и энергетической безопасности. Эти отношения служат как развитию региона, так и поддержанию мирового влияния США.

**Ключевые слова:** *США, отношения США и Европы, Западная Европа, Северная Европа, Юго-Восточная Европа*

***Summary***

***Hafiz Karimli***

***The Role of the United States as a Dominant Political Power in Relations with European Countries***

Historically, the United States has played an important role in the political and economic life of Europe, and this has become even stronger, especially after World War II. Because after World War II, the United States played a key role in the reconstruction of Europe. The superior political power of the United States in its relations with European countries stems from its leadership in the military, economic, diplomatic and cultural fields. In the military field, the United States has a military power in Europe with numerous bases within the framework of NATO. In addition, the military technologies and intelligence capabilities of the United States help European countries ensure mutual security.

The intelligence, military and diplomatic power of the United States also plays a major role in European security policy. European countries work together with the United States to prevent terrorism and manage regional crises. The diplomatic power shown by the United States on international platforms allows it to shape the positions of European countries and exert great influence on the issues under discussion.One of the factors that further strengthens the military cooperation of the United States with the countries of Northern Europe is its export of fighter jets, radar systems and other defense technologies to these countries. In addition, the United States and the countries of Northern Europe conduct joint military exercises within the framework of NATO.

The main goal of the US activities in this region is to limit the influence of Russia and China. Russia is trying to expand its influence in the energy and military fields in this region, while China is trying to exert economic influence through the "One Belt, One Road" initiative. The US is trying to maintain its advantage by strengthening its partners in this competitive environment. The US sees European countries as a strong security guarantor, especially against the influence of Russia and Iran in the region.

Thus, the US relations with Europe are based on strategic interests, strengthening NATO, defending democratic principles and energy security. These relations serve both the development of the region and the maintenance of the global influence of the US.


**Key words:** *USA, US-Europe relations, Western Europe, Northern Europe, Southeastern Europe*

Baş redaktorun müavini s.e.d., prof. İbrahimova Gülzar İsaxan qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.